## Əməkdaşlıq fəaliyyətləri

- AQTA ilə Çili Respublikasının Milli Balıqçılıq və Akvakultura Xidməti arasında baytarlıq nəzarətinə aid olan bir sıra məhsulların Azərbaycandan Çiliyə ixracının təmin edilməsi məqsədilə işlər həyata keçirilir.
- 2026-cı il 24 iyun tarixində Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi ilə Çili Respublikasının Milli Balıqçılıq və Akvakultura Xidməti və Qida Keyfiyyəti və Təhlükəsizliyi Agentliyinin nümayəndələri arasında Çili Respublikasının Azərbaycandakı Səfirlik nümayəndələrinin də iştirakı ilə virtual tanışlıq görüşü keçirilmişdir. Görüşdə Çili Respublikasının qida təhlükəsizliyi sisteminin ixtisaslaşmış bir neçə qurumdan ibarət olması haqqında məlumat verilmiş, həmçinin Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əsas fəaliyyət istiqamətlərini əhatə edən təqdimat nümayiş olunmuşdur. Eləcə də, balıqçılıq məhsullarının idxalı ilə bağlı mövcud prosedurlar və hər iki ölkənin səlahiyyətli qurumları arasında qida təhlükəsizliyi sistemlərinin ekvivalentliyinin tanınması məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.
- 2026-cı il 2 aprel tarixində Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin binasında Çili Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin müvəqqəti işlər vəkili cənab Xuan Karlos Salazar Alvares ilə Agentliyin müvafiq şöbə rəhbərləri arasında nəzakət görüşü keçirilmişdir. Görüşdə Çili Respublikasında fəaliyyət göstərən 30-a yaxın balıqçılıq müəssisəsinin ölkəmizə məhsul ixrac etmək marağı qeyd olunmuş, mövcud potensialın reallaşdırılması istiqamətində fikir mübadiləsi aparılmışdır.

  Bununla yanaşı, “Qida təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn məsələlər qarşı tərəfin diqqətinə çatdırılmışdır. Bildirilmişdir ki, qüvvədə olan qanunvericiliyə əsasən, yüksək riskli qida və yem məhsullarını ölkəmizə ixrac etmək istəyən müəssisələr Agentlik tərəfindən yerində və ya videoinspeksiya formatında qiymətləndirilməli və təsdiq edilməlidir.

  Görüşdə həmçinin qeyd olunub ki, ölkələrimiz arasında qida obyektlərinin təsdiqi sistemlərinin ekvivalentliyinin qarşılıqlı tanınması gələcəkdə ikitərəfli ticarət əlaqələrinin genişləndirilməsinə və ixrac proseslərinin sadələşdirilməsinə zəmin yaradacaqdır.